## FİKİRLƏRİNDƏN SİTATLAR

*“Biz Qərbi Azərbaycana qayıdacağıq. Bu, siyasi iddia deyil, hüquqi məsələdir. Qərbi Azərbaycana qayıdış bizim tarixi yaddaşımız və emosional ruhumuz olacaq”.*

***

*"Süni intellekt fikrin yaradıcılığı, kəşfi kimi vasitələrdən ibarətdir və qeyd etməliyəm ki, bu vasitələr başəri mənəviyyatı və insani dəyərləri gücləndirir. Çünki süni intellektin mənəviyyatı yoxdur, lakin insan mənəviyyatın bir parçasıdır".*

***

*“Gənclər bu gün telefonu elm mənbəyi kimi görürlərsə, oxusunlar. Tarixə nəzər saldıqda görürük ki, kağız Avropaya gəldiyi dövrdə belə avropalılar məlumatları dəri üzərinə yazmağa davam edirdilər. Çünki məlumatların itmə və ya zədələnmə ehtimalı var idi və insanlar bilikləri qorumağın yollarını axtarırdılar. Biz kitabları yazırıqsa, onları arxivlərdə saxlamalı və gələcək nəsillərə ötürməliyik. Gənclərin əsas məqsədi bilgi əldə etmək olmalıdır. Kitab sevgidir, çünki indiki nəsil qazandığı nailiyyətləri məhz kitablar vasitəsilə əldə edib. Kitab insanın emosional yaddaşında iz qoyur, ona enerji və duyğu bəxş edir. Həm elektron vasitələrdən, həm də ənənəvi kitablardan mütaliə etmək vacibdir”.*

***

*“Tarix və mədəniyyət abidələrinin qorunması nə qədər vacibdirsə, onların düzgün tanıdılması da bir o qədər vacibdir. Hər il ölkəmizə çoxsaylı xarici turistlər gəlir və onlara tarixi abidələrimizi doğru tanıtmaq önəmlidir. Bu, həm də, daxili auditoriya üçün vacibdir”.*

***

*“Heydər Əliyev bütün zamanların ən böyük dövlət xadimlərindən biri, Azərbaycan xalqının ulu öndəridir”.*

***

*“...O, bir millət mücahidi idi, xalq mücahidi idi, Azərbaycan xalqının böyük mücahidi idi, Azərbaycan xalqını beynəlxalq münasibətlərdə böyük arenaya çıxarmağı qarşısına məqsəd qoymuşdu. Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı qarşısına məqsəd qoymuşdu. Müstəqil Azərbaycan dövlətinin əbədi olmasını qarşısına məqsəd qoymuş böyük bir mücahid idi. Prezidentlikdən tutmuş qalan digər titul və vəzifələr isə onun üçün məhz bu məqsədləri həyata keçirmək üçün bir mexanizm və vasitə idi. Ona görə də ulu öndər Heydər Əliyev Azərbaycan xalqı tərəfindən daima hörmətlə anılacaq. Xalqımız var olduqca o da yaşayacaq”.*

***

*“İlk növbədə hər bir xalq öz mədəniyyətini tanımalı, bilməli, öyrənməli, daha sonra onu qorumalı və təbliğ etməlidir”.*

***

*“Hər bir xalqın milli geyimləri onun adət-ənənələrinin, məişət münasibətlərinin, mədəni həyatının və tarixi yaddaşının ayrılmaz hissəsidir. Geyim üzərindəki naxışlar, hansı yaş dövründə hansı geyimin geyinilməsi, qadın və ya kişinin müəyyən yaş mərhələlərində hansı rənglərə üstünlük verməsi kimi məqamlar mədəniyyətimizdə bir növ “sosial dil” rolunu oynayıb”.*

***

*“Azərbaycan öz təhlükəsizliyini təmin edib və inkişafımızın da əsasında duran başlıca faktor budur”.*

*“Biz hər bir mərhələdə yaratdığımız tarixə sahib çıxmalıyıq və onu olduğu kimi təqdim etməyi, tanıtmağı bacarmalıyı”.*

***

*“İnformasiya təhlükəsizliyi Azərbaycanın milli təhlükəsizliyinin komponentlərindən biridir”.*

***

*“Milli mətbuatımız xalqımızın avtobioqrafiyası hesab edilən tariximizin hazırki dövrünün səlnaməçisidir. Gələcək nəsllər hazırki dövr haqqında bugünkü media mənsublarımızın yazdığı, yaratdığı media nümunələri ilə xəbər tutacaqlar. Bu mənada, media mənsubu olmaq, həm də bir missiyadır. Milli maraqlara xidmət edən, dövlətimizi qoruyan, dövlətçiliyimizə xidmət edən həqqətləri yazmaq medianın mühüm vəzifəsdir. Azərbaycan Mediası bütün bu çağırışların, vəzifələrin öhtəsindən layiqincə gəlməyi bacarır”.*

***

*“27 sentyabr bizi tarixi zəfərə götürəcək 44 günlük müharibənin başlandığı gündür. Məhz 27 sentyabrdan başlayan müharibə Azərbaycan dövlətçilik tarixində və hərbi siyasi tarixində son 200 illik güc balansını dəyişərək milli dövlətçiliyimizi tamamilə yeni bir inkişaf mərhələsinə çıxartdı”.*

***

*“Şuşa döyüşü dünya hərb tarixinə keçən ən nadir qəhrəmanlıq nümunələrindəndir”.*

***

*“Azərbaycanın əldə etdiyi tarixi Zəfəri şərtləndirən bir sıra mühüm əhəmiyyətli amillər var ki, onların da başında hər şeydən əvvəl lider və insan amili gəlir. Tarixi təcrübə və bugünkü ən yeni reallıqlar bir daha təsdiq edir ki, qələbəni yalnız güclü iradəyə sahib, qətiyyətli, heç nədən çəkinməyərək cəsur qərarlar qəbul edən, milli maraqları hər şeydən üstün tutmağı və həm də onu qorumağı bacaran liderlər qazana bilir”.*